Yazan
05.06.15 20:23 -



Belçikanın “EurActiv” adlı nüfuzlu nəşrində İlinsk Dövlət Universitetinin Konstitusiya Tədqiqatları Mərkəzinin direktoru, professor Giorgi Meladzenin Gürcüstana və Azərbaycana turist axınının artması barədə məqaləsi dərc olunub (http://www.euractiv.com/sections/baku-2015-european-games/tourist-boom-georgia-and-azerbaijan-helps-mitigate-low-oil-prices). Müəllif qeyd edir ki, bu iki dövlət xarici turistlərə əsrarəngiz təbiət, memarlıq inciləri və qədim tarixi abidələr təqdim edir.

G.Meladze turizm sektorunun dünya bazarında neftin qiymətdən düşməsinin öhdəsindən gəlməkdə Bakıya çox kömək etdiyini qeyd edərək yazır ki, göstərilən iki dövlət iqtisadiyyatın bu sektoruna böyük sərmayələr yatırır. Müəllif xatırladır ki, “Lonely Planet” adlı populyar turizm nəşri Gürcüstanı “dünyanin ən gözəl ölkələrindən biri” adlandırır, bir çox başqa nəşrlər isə

Azərbaycan haqqında belə yazır.

G.Meladze iki qardaş dövlətin Qara dəniz və Xəzər dənizi sahillərinə ayrıca diqqət yetirir. O, belə bir fakta da diqqəti cəlb edir ki, Bakı birinci Avropa Oyunlarında minlərlə turist və təqribən 6000 idmançı qəbul etməyə hazırlaşır, Gürcüstanda isə Avropanın müxtəlif ölkələrindən olan təqribən 4000 atletin iştirak edəcəyi gənclər arasında Avropa Olimpiya Festivalı keçiriləcək.